UOT 94(479.24); UOT 94

SƏBİNƏ HƏSƏNOVA
Bakı Dövlət Universitetinin doktorantı
sabinhasanova08@gmail.com

AZƏRBAYCAN VƏ QƏRB SLAVYAN ÖLKƏLƏRİ ARASINDA BEYNƏLXALQ ƏLAQƏLƏRİN YARANMASI VƏ İNKİŞAFI

DOI: https://doi.org/10.36719/2708-065X/109/181-186

Azərbaycan ilə Qərb Slavyan ölkələri arasında beynəlxalq əlaqələrin yaranması XX əsrin sonlarından – Azərbaycan Respublikasının müstəqillik qazanmasından sonra sürətlə inkişaf etməyə başlamışdır. Bu münasibətlər siyasi, iqtisadi, mədəni və humanitar sahələri əhatə edir. Siyasi sahədə qarşılıqlı səfərlər, diplomatik nümayəndəliklərin açılması və beynəlxalq təşkilatlarda əməkdaşlıq əlaqələrin möhkəmlənməsinə səbəb olmuşdur. İqtisadi münasibətlər enerji sahəsində əməkdaşlıq, investisiya təşviqi və ticarət dövriyyəsinin artması ilə müşahidə olunur. Azərbaycan Respublikasının zəngin enerji ehtiyatları, xüsusilə neft və qaz ixracı bu əlaqələrdə mühüm rol oynayır. Mədəni sahədə isə qarşılıqlı tədbirlər, ali təhsil mübadiləsi və elmi əməkdaşlıq xalqlar arasında anlayış və dostluğun inkişafına xidmət edir. Həmçinin, Qərb Slavyan ölkələrinin Avropa İttifaqında təmsil olunması Azərbaycanın Avropa strukturlarına inteqrasiya səylərində dəstəkçi rol oynamışdır. Ümumilikdə, Azərbaycan və Qərb Slavyan ölkələri arasında əlaqələrin yaranması və inkişafı qarşılıqlı maraq və strateji tərəfdaşlıq prinsipləri əsasında formalaşaraq regionda sülhə və sabitliyə töhfə verir.

Açar sözlər: Azərbaycan Respublikası, Qərb slavyanlar, xarici siyasət, beynəlxalq təşkilatlar, əməkdaşlıq.

Giriş. Qlobal və regional siyasətdə baş verən dinamik dəyişikliklər, xüsusilə enerji təhlükəsizliyi, geosiyasi sabitlik və beynəlxalq əməkdaşlığın yeni formalarının yaranması kontekstində Azərbaycan ilə Qərb slavyan ölkələri – Polşa, Çexiya və Slovakiya arasında münasibətlərin öyrənilməsi aktuallıq kəsb edir. Bu ölkələr həm Avropa İttifaqının və NATO-nun fəal üzvləri, həm də Mərkəzi Avropa regionunun mühüm aktorları kimi Azərbaycan üçün strateji tərəfdaşlardır. Son illərdə Azərbaycanın enerji resurslarına olan tələbatın artması, eləcə də Avropa ilə enerji əməkdaşlığının gücləndirilməsi Qərb slavyan ölkələri ilə münasibətləri daha da ön plana çıxarmışdır [4, s.116].

Eyni zamanda, Ermənistan-Azərbaycan münaqişəsinin başa çatması və bölgədə yeni reallıqların yaranması fonunda bu ölkələrin Azərbaycanın ərazi bütövlüyünə verdiyi dəstək, beynəlxalq təşkilatlarda nümayiş etdirdikləri mövqe və müxtəlif sahələrdə imzalanan əməkdaşlıq sənədləri bu münasibətlərin dərinləşdiyini göstərir.

Azərbaycanın beynəlxalq nüfuzunun artmasında bir sıra mühüm amillər rol oynamışdır. İlk növbədə, ölkənin enerji strategiyası xüsusi vurğulanmalıdır. "Əsrin müqaviləsi" (1994) və sonrakı enerji layihələri, xüsusilə Bakı-Tbilisi-Ceyhan (BTC) neft kəməri, Bakı-Tbilisi-Ərzurum (BTƏ) qaz kəməri və Cənub Qaz Dəhlizi Azərbaycanın Avropanın enerji təhlükəsizliyində əsas tərəfdaş kimi mövqeyini gücləndirmişdir [11].

Beynəlxalq təşkilatlarla əməkdaşlıq da Azərbaycanın beynəlxalq siyasətdə yerini müəyyən edən əsas istiqamətlərdəndir. Azərbaycan BMT, ATƏT, İslam Əməkdaşlıq Təşkilatı, Avropa Şurası və digər nüfuzlu beynəlxalq qurumların fəal üzvüdür. Xüsusilə 2011-ci ildə BMT Təhlükəsizlik Şurasının qeyri-daimi üzvü seçilməsi və 2019-2023-cü illərdə Qoşulmama Hərəkatına uğurlu sədrliyi Azərbaycanın beynəlxalq arenada diplomatik imkanlarını genişləndirmişdir [10].

Azərbaycanın beynəlxalq siyasətdə rolunun artmasında regional sabitlik və təhlükəsizlik məsələləri də önəmli yer tutur. 2020-ci ildə 44 günlük Vətən müharibəsi nəticəsində Azərbaycan ərazi bütövlüyünü bərpa etmiş və bölgədə yeni geosiyasi reallıqlar formalaşmışdır. Post-müharibə dövründə ölkə regional inteqrasiya, nəqliyyat dəhlizlərinin açılması və dayanıqlı sülhün təmin olunması istiqamətində fəal diplomatik təşəbbüslərlə çıxış edir.

Bundan əlavə, Azərbaycanın "multivektor" xarici siyasət kursu, yəni eyni zamanda Qərb, Şərq, Rusiya, Türkiyə və Çin ilə balanslaşdırılmış münasibətlər yürütməsi ölkənin beynəlxalq siyasətdə özünəməxsus mövqeyini qorumasına şərait yaradır. Bu yanaşma ölkəyə həm Qərb slavyan ölkələri ilə, həm də Şərq və Mərkəzi Asiya dövlətləri ilə əməkdaşlığı inkişaf etdirmək imkanı verir. Qlobal geosiyasi mühitin dəyişməsi, regional münaqişələrin sülh yolu ilə həllinə yönəlik təşəbbüslərin artması və enerji təhlükəsizliyinin aktuallaşması Azərbaycan Respublikasının beynəlxalq münasibətlərdəki rolunu daha da ön plana çıxarmışdır.

Azərbaycan ilə Polşa, Çexoslovakiya (sonradan Çexiya və Slovakiya) arasında münasibətlər SSRİ dövründə birbaşa dövlətlərarası deyil, Sovet İttifaqının ümumi xarici siyasəti çərçivəsində həyata keçirilirdi. Həmin dövrdə bu ölkələr sosialist düşərgəsinin üzvləri kimi daha çox ideoloji yaxınlıq əsasında qarşılıqlı münasibətlər qururdular. Azərbaycan isə Sovet İttifaqının tərkib hissəsi olduğundan, əlaqələr əsasən Moskva vasitəsilə təşkil olunurdu.

Bu dövrdə bir sıra iqtisadi və mədəni mübadilələr olsa da, Azərbaycanın müstəqil aktor kimi çıxış etməsi mümkün deyildi. Buna baxmayaraq, Polşa və Çexoslovakiya ilə texniki əməkdaşlıq, sənaye və təhsil sahələrində qeyri-rəsmi münasibətlər olmuşdur. Məsələn, bir sıra Azərbaycan mütəxəssisləri Polşada təhsil almış, eləcə də Çex texnologiyası ilə işləyən avadanlıqlar Azərbaycanda tətbiq olunmuşdur [4, s.143].

1991-ci ildə Azərbaycanın müstəqilliyini bərpa etməsi ilə Polşa, Çexiya və Slovakiya ilə ikitərəfli münasibətlərin qurulması üçün real hüquqi və diplomatik əsaslar formalaşdı. Qərb slavyan ölkələri Azərbaycanın müstəqilliyini tanıyan ilk Avropa ölkələrindən oldular və bu, gələcək münasibətlərə güclü təməl yaratdı.

Polşa Azərbaycanın müstəqilliyini 1991-ci ilin sonlarında tanıdı və 21 fevral 1992-ci ildə diplomatik münasibətlər quruldu. Çexiya ilə diplomatik əlaqələr 27 yanvar 1993-cü ildə yaradıldı. Slovakiya isə Çexoslovakiyanın dağılmasından sonra 23 noyabr 1993-cü ildə Azərbaycanla diplomatik münasibətləri təsis etdi. Bu münasibətlərin təşəkkülündə ilk illərdə səfirliklərin açılması, konsulluq fəaliyyətinin təşkili və diplomatik nümayəndəliklərin yaradılması mühüm rol oynadı. Azərbaycan Varşavada (Polşa) 2005-ci ildə səfirlik açdı, Polşa isə 2001-ci ildən etibarən Bakıda fəaliyyət göstərməyə başladı. Çexiya 2005-ci ildə Bakıda səfirlik açdı, Azərbaycan isə 2007-ci ildən Praqada fəaliyyət göstərir. Slovakiya ilə diplomatik nümayəndəliklər daha gec açıldı, lakin ölkələr daimi nümayəndəlik və fəxri konsulluqlar vasitəsilə əlaqələri inkişaf etdirdilər.

İkitərəfli münasibətlər fonunda Azərbaycan xüsusilə Polşa ilə strateji əməkdaşlıq qurmağa müvəffəq olmuşdur. 2000-ci illərdən başlayaraq enerji təhlükəsizliyi, nəqliyyat və Şərq Tərəfdaşlığı proqramı çərçivəsində əməkdaşlıq daha da güclənmişdir. Polşa Azərbaycanla münasibətlərdə regionda sabitlik və enerji təhlükəsizliyini prioritet saymışdır.

Çexiya ilə münasibətlər də diplomatik baxımdan fəaldır. İkitərəfli ticarət və energetika sahəsində razılaşmalar münasibətləri gücləndirmiş, bu ölkə Azərbaycanın xam neftinin əsas alıcılarından birinə çevrilmişdir. Slovakiya ilə əməkdaşlıq daha çox çoxtərəfli platformalar və Avropa İttifaqı çərçivəsində inkişaf etmişdir. Çoxtərəfli siyasi münasibətlər çərçivəsində GUAM (Gürcüstan-Ukrayna-Azərbaycan-Moldova) və Visegrad qrupu (Polşa, Çexiya, Slovakiya, Macarıstan) ölkələri arasında əməkdaşlıq imkanları da diqqət mərkəzində olmuşdur. Hər iki qrup regional sabitlik və inteqrasiya üçün müvafiq platformalar təqdim edir və Azərbaycan bu imkanlardan istifadə etməyə çalışır [2, s.53].

Beynəlxalq təşkilatlar çərçivəsində əməkdaşlıq. Azərbaycan ilə Qərb slavyan ölkələri arasında beynəlxalq təşkilatlar çərçivəsində əməkdaşlıq da dərinləşməkdədir. Bu münasibətlər, xüsusilə BMT, ATƏT, Avropa Şurası və Avropa İttifaqı kimi platformalarda özünü göstərmişdir. BMT çərçivəsində Polşa, Çexiya və Slovakiya Azərbaycanın irəli sürdüyü təşəbbüsləri dəstəkləmiş, müxtəlif qətnamələrdə neytral və ya dost mövqe nümayiş etdirmişlər. Azərbaycanın BMT-dəki fəallığı, xüsusilə 2011–2013-cü illərdə Təhlükəsizlik Şurasına qeyri-daimi üzv seçilməsi zamanı bu ölkələrin dəstəyi ilə güclənmişdir [11].

ATƏT çərçivəsində əməkdaşlıq daha çox təhlükəsizlik, insan hüquqları və demokratiya sahələrində aparılır. ATƏT-in Minsk Qrupunun fəaliyyəti dövründə Qərb slavyan ölkələri Azərbaycanın mövqeyinə anlayışla yanaşmış və obyektiv mövqe saxlamışlar. Eyni zamanda, ATƏT çərçivəsində seçki müşahidəsi və islahat proqramlarında əməkdaşlıq həyata keçirilmişdir. Avropa Şurası ilə əməkdaşlıq

Polşa, Çexiya və Slovakiya ilə ikitərəfli münasibətlərə də müsbət təsir etmişdir. Həmin ölkələrin parlamentariləri Azərbaycanın Avropa Şurası Parlament Assambleyasındakı mövqeyini dəstəkləmiş, Azərbaycan nümayəndə heyətləri ilə sıx əməkdaşlıq etmişlər.

Qərb slavyan ölkələri, xüsusilə Polşa və Çexiya, Azərbaycanın beynəlxalq səviyyədə tanınmış sərhədləri daxilində ərazi bütövlüyünü dəstəklədiklərini bir neçə dəfə rəsmi şəkildə bəyan etmişlər. Bu dəstək həm ikitərəfli görüşlərdə, həm də beynəlxalq təşkilatlar çərçivəsində rəsmi sənədlərdə və çıxışlarda əks olunmuşdur. Polşa, Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi dövründə Azərbaycanın ərazi bütövlüyünü dəstəkləyən mövqeyini ATƏT və Avropa İttifaqı çərçivəsində dəfələrlə ifadə etmişdir. Çexiya Parlamenti 2013-cü ildə Azərbaycanla dostluq və əməkdaşlıq qrupunun təşəbbüsü ilə Azərbaycanın ərazi bütövlüyünü dəstəkləyən bəyanat qəbul etmişdir. Slovakiya da 2020-ci ildə İkinci Qarabağ müharibəsi zamanı regionda sülh və Azərbaycanın suverenliyi məsələsində balanslı mövqe nümayiş etdirmişdir. Azərbaycan və Qərb slavyan ölkələri arasında ali səviyyədə baş tutan qarşılıqlı səfərlər və imzalanmış sənədlər münasibətlərin institusional və hüquqi bazasını möhkəmləndirmişdir [10].

Polşa ilə Prezident İlham Əliyevin Polşaya rəsmi səfərləri (2005, 2017-ci illər) çərçivəsində iqtisadi, energetika və nəqliyyat sahələrində bir sıra sazişlər imzalanmışdır. 2007-ci ildə Polşa Prezidenti Lech Kaczyński-nin Bakıya səfəri zamanı strateji əməkdaşlıq sənədləri qəbul olunmuşdur. Çexiya ilə Prezident İlham Əliyevin 2009-cu ildə Çexiyaya rəsmi səfəri zamanı "İqtisadi əməkdaşlığın genişləndirilməsi haqqında Birgə Bəyanat" imzalanmışdır [6, s.212-213].

Enerji, səhiyyə və təhsil sahələrini əhatə edən əməkdaşlıq protokolları imzalanmışdır. Slovakiya ilə 2019 və 2023-cü illərdə keçirilən yüksək səviyyəli hökumətlərarası komissiya iclasları çərçivəsində sənaye, nəqliyyat, texnologiya sahələrində razılaşmalar əldə olunmuşdur.

Enerji təhlükəsizliyi məsələlərində Qərb slavyanları. Enerji təhlükəsizliyi Qərb slavyan ölkələri ilə Azərbaycan arasında əməkdaşlığın əsas sütunlarından biridir. Azərbaycanın zəngin enerji resursları və onun Avropaya enerji ixrac edən etibarlı tərəfdaş kimi rolu, xüsusilə Polşa və Çexiya üçün böyük əhəmiyyət daşıyır.

Ən vacib layihələrdən biri Cənub Qaz Dəhlizidir. Bu dəhliz Azərbaycan qazının Gürcüstan, Türkiyə və Avropa ölkələri vasitəsilə Avropa bazarlarına çatdırılmasını nəzərdə tutur. Cənub Qaz Dəhlizi vasitəsilə Azərbaycan qazı artıq Yunanıstan, İtaliya və Bolqarıstana ixrac olunur, və gələcəkdə bu qazın Mərkəzi Avropaya, o cümlədən Polşa və Slovakiyaya da çatdırılması planlaşdırılır [7, s.133-135].

Polşa bu layihədə "Baltik Boru Kəməri" və "Three Seas Initiative" (Üç Dəniz Təşəbbüsü) çərçivəsində maraqlıdır. Azərbaycanın qaz təchizatı, Rusiyadan enerji asılılığını azaltmağa çalışan Avropa ölkələri üçün alternativ mənbə kimi strateji əhəmiyyət daşıyır. Çexiya isə Azərbaycan neftinin əsas alıcılarından biridir. Bu ölkənin enerji təhlükəsizlik strategiyasında Azərbaycanın xüsusi yeri vardır və Çexiyanın "Unipetrol" şirkəti uzun illərdir Azərbaycan neftini emal edir [10].

Azərbaycan hərbi bloklara qoşulmayan ölkə olsa da, NATO ilə əməkdaşlıq çərçivəsində Qərb slavyan ölkələri ilə sıx təmaslar qurmuşdur. Bu əməkdaşlıq əsasən "Sülh naminə tərəfdaşlıq" proqramı, Fərdi Tərəfdaşlıq Əməkdaşlıq Planı (IPAP) və Tərəfdaşlıq üzrə Fəaliyyət Planı vasitəsilə həyata keçirilir. Polşa bu prosesdə xüsusi fəallıq göstərmiş, Azərbaycanda keçirilən hərbi və təhlükəsizlik sahəli təlimlərdə iştirak etmiş, eyni zamanda Azərbaycan zabitlərinin NATO standartları üzrə hazırlanmasına dəstək vermişdir. Çexiya və Slovakiya NATO üzvü kimi Azərbaycanın müstəqilliyini və suverenliyini dəstəkləyən mövqe sərgiləmiş, Azərbaycanın Əfqanıstandakı NATO missiyalarına qoşulmasını müsbət qiymətləndirmişlər.

Avropa İttifaqı çərçivəsində əməkdaşlıq isə daha geniş spektrdə - enerji, nəqliyyat, rəqəmsallaşma, təhlükəsizlik, miqrasiya və insan hüquqları kimi sahələri əhatə edir. Qərb slavyan ölkələri – xüsusilə Polşa və Slovakiya - Azərbaycanla Avropa İttifaqı arasında tərəfdaşlığın dərinləşdirilməsinə dair səyləri dəstəkləmiş və bu istiqamətdə vasitəçilik missiyası da həyata keçirmişlər. Azərbaycan "Şərq Tərəfdaşlığı" proqramı çərçivəsində Avropa İttifaqı ilə əməkdaşlığını inkişaf etdirərkən, bu ölkələrin texniki yardım və təcrübə mübadiləsi böyük əhəmiyyət daşıyır [11].

Azərbaycan və Qərb slavyan ölkələri qlobal təhlükəsizlik çağırışları - o cümlədən terrorizmə qarşı mübarizə, qanunsuz miqrasiya, transmilli cinayətkarlıq və kiber təhlükəsizlik sahəsində əməkdaşlıq edirlər. Azərbaycan bu ölkələrlə Interpol və Avropa Polis Təşkilatı (Europol) çərçivəsində koor-

dinasiyanı gücləndirərək, informasiya mübadiləsi, risklərin qiymətləndirilməsi və qabaqlayıcı tədbirlərin həyata keçirilməsində iştirak edir. Terrorizmlə mübarizə sahəsində Azərbaycanda keçirilən beynəlxalq təhlükəsizlik forumlarında Polşa, Çexiya və Slovakiyadan mütəxəssislər iştirak etmiş və regional təhlükələrin müzakirəsinə töhfə vermişlər. Miqrasiya məsələləri üzrə əməkdaşlıq, xüsusilə Yaxın Şərq və Əfqanıstandan olan qaçqın axınlarının qarşısının alınması və sərhəd təhlükəsizliyinin təmin olunması istiqamətində həyata keçirilir. Bu, həm də Avropa İttifaqının sərhəd təhlükəsizliyi proqramları çərçivəsində reallaşır. Kiber təhlükəsizlik sahəsində isə Slovakiya və Çexiya Azərbaycanla birgə layihələrdə iştirak etmiş, dövlət qurumlarına texniki dəstək və təlimlər təklif etmişdir.

XX əsrin sonlarında sosialist rejimlərin süqutu ilə bu ölkələr müstəqil siyasət yürütməyə başladılar. 1999-cu ildə Polşanın, 2004-cü ildə isə Çexiya və Slovakiyanın NATO-ya, eyni zamanda Avropa İttifaqına üzv olmaları onların beynəlxalq siyasətdə Qərb strukturlarında fəal iştirakını rəsmiləşdirmişdir. Bu ölkələr hazırda Avropanın təhlükəsizlik və enerji gündəmində mühüm rol oynayır və Şərq Tərəfdaşlığı ölkələri ilə, o cümlədən Azərbaycanla əməkdaşlığın inkişafında maraqlıdırlar [2, s.78-80].

Azərbaycanın enerji resursları və Qərb slavyan ölkələrinin Avropa enerji bazarındakı maraqları iqtisadi əməkdaşlığın əsas istiqamətlərindən birinə çevrilmişdir. Xüsusilə "Cənub Qaz Dəhlizi" layihəsi çərçivəsində bu ölkələrin enerji təhlükəsizliyi məsələsində Azərbaycanın rolu artmaqdadır. Polşa "Baltik-Adriatik-Qara dəniz" təşəbbüsündə Azərbaycanın iştirakı ilə maraqlıdır və Bakı limanı ilə Qdansk limanı arasında yükdaşımaların artırılması perspektivlidir. Çexiya isə Azərbaycanın xam neftinin əsas alıcılarından biridir. İki ölkə arasında enerji sahəsində əməkdaşlığa dair memorandumlar imzalanmışdır. Slovakiya ilə iqtisadi münasibətlər nisbətən zəif inkişaf etsə də, son illərdə sənaye avadanlıqları, kənd təsərrüfatı məhsulları və əczaçılıq sahəsində ticarət artmaqdadır. Azərbaycan ilə Qərb slavyan ölkələri arasında qarşılıqlı ticarət dövriyyəsi sabit şəkildə inkişaf edir və hökumətlərarası iqtisadi komissiyaların fəaliyyəti bu prosesə dəstək verir [11].

Şərq Tərəfdaşlığı proqramı çərçivəsində Azərbaycan ilə bu ölkələr arasında layihələr həyata keçirilmiş, demokratik islahatlar, vətəndaş cəmiyyətinin inkişafı, rəqəmsallaşma və yaşıl enerji kimi sahələr üzrə birgə əməkdaşlıq təşviq olunmuşdur. Polşa və Slovakiya da Avropa İttifaqının "Transxəzər nəqliyyat dəhlizi" təşəbbüslərində Azərbaycanın fəal iştirakını dəstəkləmiş, regionlararası nəqliyyat və logistika sahəsində sıx əməkdaşlığa maraq göstərmişdir.

Son illərdə beynəlxalq münasibətlər sistemində baş verən dəyişikliklər - enerji təhlükəsizliyinə dair çağırışlar, yeni nəqliyyat marşrutlarının formalaşması və geosiyasi ittifaqların yenidən qurulması - Azərbaycan ilə Qərb slavyan ölkələri arasında əməkdaşlıq üçün yeni imkanlar açır. Rusiya-Ukrayna müharibəsi fonunda Avropa ölkələrinin enerji mənbələrini diversifikasiya etməyə çalışması Azərbaycanın strateji əhəmiyyətini daha da artırmışdır [10].

Qərb slavyan ölkələri üçün Azərbaycan alternativ enerji mənbəyi, sabit tərəfdaş və Cənubi Qafqaz regionunda geosiyasi aktor kimi dəyərləndirilir. Bu səbəbdən də enerji, nəqliyyat, təhlükəsizlik və texnologiya sahələrində əməkdaşlıq genişləndirilə bilər.

Nəticə. Azərbaycan ilə Qərb slavyan ölkələri – Polşa, Çexiya və Slovakiya arasında diplomatik münasibətlərin inkişafı, xüsusilə 1990-cı illərin sonlarından etibarən mühüm mərhələlərdən keçmişdir. Müxtəlif tarixi, mədəni və siyasi faktorlar, həmçinin regional və qlobal geosiyasi mühit bu əlaqələrin dinamikasını formalaşdırmışdır. Qərb slavyan ölkələri, Azərbaycanın müstəqilliyinin bərpasını dəstəkləmiş və sonrakı illərdə ölkənin beynəlxalq mövqeyini gücləndirən mühüm tərəfdaşlara çevrilmişdir. Azərbaycanın müstəqillik əldə etməsi ilə birlikdə, bu ölkələrlə münasibətlərin inkişafı Avropa İttifaqı və NATO kimi beynəlxalq təşkilatlarla əlaqələrin inkişafını və Azərbaycana bu strukturlarla əlaqələrin qurulmasında dəstək verməsini təmin etmişdir. Qərb slavyan ölkələri Azərbaycanın ərazi bütövlüyünü və suverenliyini dəstəkləyərək, regionda sabitlik və təhlükəsizlik məsələlərində Azərbaycanla əməkdaşlıq etmişlər.

Bugünkü gündə Azərbaycan ilə Polşa, Çexiya və Slovakiya arasında əməkdaşlıq daha geniş və çoxsahəli xarakter daşıyır. İqtisadiyyat, enerji, mədəniyyət və təhsil sahələrində tərəfdaşlıq yeni perspektivlər açmaqdadır. Xüsusilə, enerji təhlükəsizliyi və yaşıl enerjinin inkişafı sahəsində yeni əməkdaşlıq imkanları meydana çıxmışdır. Avropa İttifaqı ilə Şərq Tərəfdaşlığı proqramı çərçivəsində Azərbaycanın daha fəal iştirakı, bu ölkələr ilə əlaqələrin daha da möhkəmlənməsini təmin etmişdir.

Gələcəkdə Azərbaycan və Qərb slavyan ölkələri arasında əlaqələrin daha da intensivləşdirilməsi, həm regional, həm də beynəlxalq arenada daha güclü strateji tərəfdaşlıq münasibətlərinin qurulmasına səbəb ola bilər.

ƏDƏBİYYAT

1. Baxşəliyev Tahir, Slavyan ölkələri tarixi:1917-2015, Bakı, 2016, 372 s.
2. History Forever, History of Czech Republic & Yugoslavia: Bohemia, Czechoslovakia, Czech Republic & Czechia, Amazon Digital Services LLC - Kdp, 2022, 96 p.
3. Hochman Jiří, Fawn Rick, Historical Dictionary of the Czech State, Scarecrow Press, 2010, 354 p.
4. William Mahoney, The History of the Czech Republic and Slovakia, Bloomsbury Academic, 2023, 320 p.
5. Məmmədov Habil, Slavyan ölkələri tarixi: uzaq keçmişdən XX əsrin 20-ci illərinədək, Bakı, Elm və Təhsil, 2020, 676 s.
6. Qasımlı Musa, Azərbaycan Respublikasının tarixi: 1991-2021, Bakı, BDU nəşriyyatı, 2021, 520 s.
7. Piriyev Abbas, Siyasi strategiya və milli təhlükəsizlik problem, Bakı, Bakı Dövlət Universiteti, 2002, 530 s.
8. Valiyev Anar, Azerbaijan's Geopolitical Landscape: Contemporary Issues, 1991–2018, Baku, 2020.
9. Шарый Андрей, Чешское время: большая история маленькой страны: от святого Вацлава до Вацлава Гавела, Азбука-Аттикус, 2022, 592 с.
10. Çex Respublikası / Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinin saytı. - https://mfa.gov.az/az/category/avropa/cexiya [19.04.2024].
11. History of Czech Republic. - https://mzv.gov.cz/stockholm/en/information_about_the_czech_republic/history/index.html [21.04.2024].

САБИНА ГАСАНОВА
Докторант Бакинского Государственного Университета

УСТАНОВЛЕНИЕ И РАЗВИТИЕ МЕЖДУНАРОДНЫХ ОТНОШЕНИЙ МЕЖДУ АЗЕРБАЙДЖАНОМ И СТРАНАМИ ЗАПАДНЫХ СЛАВЯН

Установление и развитие международных отношений между Азербайджаном и западнославянскими странами начали стремительно развиваться после обретения Азербайджаном независимости в конце XX века. Эти отношения охватывают политическую, экономическую, культурную и гуманитарную сферы.

В политической сфере укреплению связей способствовали взаимные визиты, открытие дипломатических представительств и сотрудничество в рамках международных организаций. Экономические отношения характеризуются сотрудничеством в энергетическом секторе, поощрением инвестиций и ростом товарооборота. Богатые энергетические ресурсы Азербайджана, особенно экспорт нефти и газа, играют ключевую роль в этих отношениях.

В культурной сфере взаимные мероприятия, академические обмены и научное сотрудничество способствуют укреплению взаимопонимания и дружбы между народами. Кроме того, представительство западнославянских стран в Европейском союзе поддерживает усилия Азербайджана по интеграции в европейские структуры.

В целом, возникновение и развитие отношений между Азербайджаном и западнославянскими странами основаны на взаимных интересах и принципах стратегического партнёрства, способствуя укреплению мира и стабильности в регионе.

Ключевые слова: Республика Азербайджан, западные славяне, внешняя политика, международные организации, сотрудничество.

HASANOVA SABINA
Doctoral student of Baku State University

THE EMERGENCE AND DEVELOPMENT OF INTERNATIONAL RELATIONS BETWEEN AZERBAIJAN AND THE WESTERN SLAVIC COUNTRIES

The establishment and development of international relations between Azerbaijan and the Western Slavic countries began to progress rapidly after Azerbaijan gained independence in the late 20th century. These relations encompass political, economic, cultural, and humanitarian spheres.

In the political field, mutual visits, the opening of diplomatic missions, and cooperation within international organizations have contributed to the strengthening of ties. Economic relations are characterized by cooperation in the energy sector, investment promotion, and increased trade turnover. Azerbaijan's rich energy resources, especially oil and gas exports, play a crucial role in these relations.

In the cultural sphere, mutual events, academic exchange programs, and scientific cooperation foster understanding and friendship between the nations. Additionally, the representation of Western Slavic countries in the European Union has supported Azerbaijan's efforts toward integration with European structures.

Overall, the emergence and development of relations between Azerbaijan and the Western Slavic countries are based on mutual interests and principles of strategic partnership, contributing to peace and stability in the region.

Keywords: Republic of Azerbaijan, Western Slavs, foreign policy, international organization, cooperation.

Məqalənin redaksiyaya daxil olduğu tarix: 10 aprel 2025-ci il.
Məqalənin çapa qəbul olunma tarixi: 15 may 2025-ci il.
Rəyçilər: t.ü.f.d. Abutalıb Cəlilov, t.e.d. İbrahim Zeynalov.